**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNDƏ**
**PROFESSOR, DOSENT, BAŞ MÜƏLLİM, MÜƏLLİM VƏZİFƏLƏRİNİN TUTULMASI**
**QAYDALARI**

## 1. Ümumi tələblər

**1.1.** Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli Qanununa, Azərbaycan Respublikası Əmək Məcəlləsinə, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Təhsil sahəsi işçilərinin qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçasınıntəsdiq edilməsi haqqında" 29 mart 1997-ci il tarixliQərarına, Ali təhsil müəssisələrində kafedra müdiri, professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07 avqust 1996-ci il tarixli əmrinə, AzərbaycanRespublikası TəhsilNazirinin 09 mart 2011-ci il tarixli 400 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları"na, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Nizamnaməsinə və digər müvafiq qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.2.** Azərbaycan Dövlət Pedaqoji Universitetininprofessor, dosent, baş müəllim, müəllim vakant vəzifələri bir qayda olaraq müsabiqə yolu ilə 5 tədris ili müddətinətutulur.

**1.3.**Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedraları yenidən təşkil edildikdə yüksək ixtisaslı mütəxəssisləri işə cəlb etmək zərurəti yarandıqda və digər müstəsna hallarda ayrı-ayrı şəxslər həmin vəzifələrə sonradan yalnız müsabiqədən keçməklə və əmək müqaviləsi bağlamaqla rektorun əmri ilə təyin olunurlar.

**1.4.** Azərbaycan Dövlət Pedaqoji Universitetində müsabiqətədris ilinin ikinci yarısında elan edilə bilər.

**1.5.** Müsabiqənin nəticəsinə əsasən vəzifələrə təyin olunmuş şəxslərlə işəgötürən arasında növbəti tədris ilindən əmək münasibətləri 5 tədrisili müddətinə bağlanmış əmək müqaviləsi ilə tənzimlənir. Müqavilə tərəflərin qarşılıqlı razılığı əsasında əmək müqaviləsinə uyğun tərtib olunur və qüvvədə olan qanunvericiliyə zidd olmamalıdır.

**1.6.** Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoruna İnsan resursları şöbəsi tərəfindən hər tədris ilinin əvvəlində (noyabr ayının 30-dək) cari tədris ilində səlahiyyət müddəti bitəcək seçkili vəzifələrlə bağlı məlumat verilməlidir.

**1.7.** Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdimolunma müddəti elan dərc olunduğugündən başlayaraq 30 gündür.

**1.8.** Müsabiqədə iştirak etməküçün ərizə verməmiş və ya müsabiqədən keçməmiş şəxslər tutduqlarıvəzifədən rektorun əmri ilə azad edilir və əmək kitabçasında aşağıdakı qeydiyyat aparılır: Azərbaycan Respublikası Əmək Məcəlləsinin *68-ci maddənin 2-ci hissəsinin b) bəndinə* (əmək müqaviləsinin müddətinin qurtarması) əsasən tutduğu vəzifədən azad edilərək əmək müqaviləsinə xitam verilsin.

**1.9.** Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən mərkəzi mətbuatda və Universitetin internet səhifəsində növbəti tədris ilində tədris olunacaq fənlər üzrə müsabiqə elan edilir. Sənədlərin təqdim olunmasına və müsabiqənin keçirilməsi prosesinin hər birinə 1 ay vaxt ayrılır.

**1.10.**Professor, dosent, baş müəllim, müəllim vəzifələrinə namizədliyini irəli sürənlər müvafiq normativ-hüquqi sənədlərlə, qaydalarla, ixtisas tələbləri, əmək funksiyaları ilə tanış olur və elan dərc olunduqdan sonra 1 aymüddətində ərizə iləAzərbaycan Dövlət Pedaqoji Universitetinin rektoruna müraciət edirlər.

**1.11.** Müsabiqədə professor, dosent, baş müəllim, müəllim vəzifəsinə müvafiq kafedranın profilinə uyğun, yüksək peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcəyə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, ingilis dili müəllimlərinə əlavə olaraq İELTS sertifikatı British Council-dan alınmalı (ən azı 6 bal), alman dili müəllimlərinəəlavə olaraqTEST DAF (ən azı 6 bal) əlavə olaraq, fransız dili müəllimlərinə əlavə olaraq Test de Connaissance du Français(TCF) C2 (600-699 bal),yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

**1.12.**Professor, dosent, baş müəllim, müəllim vəzifələrini tutmaq üçünmüsabiqədə iştirakedənlərin göstəricilərihəmin vəzifənin tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

**1.13.**Müsabiqədə iştirak etmək istəməyən şəxsərizəsini rektor tərəfindən təyinolunma haqqında əmr verilənədək istənilən vaxt geri götürə bilər.

**1.14.**Professor, dosent, baş müəllim, müəllim vəzifələrini tutan şəxslərin fəaliyyətinə hər hansı səbəbdən müəyyən olunmuş müddətdən əvvəl qanunvericilikdə nəzərdə tutulmuş qaydada xitam verildiyi və ya elan olunmuş müsabiqə baş tutmadığı hallarda Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorunun əmri ilə professor-müəllim heyəti vəzifəsinin icrası bu vəzifənin tələblərinə cavab verən əməkdaşa müvəqqəti (müsabiqə keçirilənədək) həvalə olunur. Həmin vəzifələrin müsabiqəsi bu qaydaların şərtləri gözlənilməklə elan olunur.

**1.15.** İki və ya daha çox kafedra birləşdirildikdə, yaxud hər hansı kafedranın bazasında iki və daha çox kafedra yarandıqda buradakı professor-müəllim heyətinin seçkilərinin əvvəl seçildikləri müddətdən tez keçirilməsinə icazə verilmir. Bu halda müddət kafedra birləşdirilənədək (yaxud ayrılanadək) keçirilmiş seçki günündən hesablanır.

**1.16.** Seçkilər müsabiqə elan olunan gündənən azı 3 (üç) ay müddətində başa çatdırılmalıdır. Üzrsüz səbəbdən seçkilərin müsabiqə vaxtında keçirilməməsinə görə Azərbaycan Dövlət Pedaqoji Universitetinin müvafiqstruktur bölmələrinin rəhbərləri bilavasitəməsuliyyətdaşıyırlar.

## 2. Müsabiqənin keçirilməsi qaydaları

**2.1.**Professor, dosent, baş müəllim, müəllim vəzifələrinə təyin olunmanın şəffaf və obyektiv aparılmasını təmin etmək məqsədilə Azərbaycan Dövlət Pedaqoji Universitetində SənədQəbulu Komissiyasıyaradılır.

**2.2.** SənədQəbulu Komissiyasının tərkibi Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorunun əmri ilə təsdiq edilir.

**2.3.** SənədQəbulu Komissiyasının tərkibi sədr,katib və üzvlərdən ibarət olur.

**2.4.**Müsabiqədə iştirak etmək istəyənlərinərizələrivə sənədləri rektorun müvafiq dərkənarı ilə araşdırılmaq üçünSənədQəbulu Komissiyasına göndərilir.

**2.5.**Müsabiqədə iştirak etmək istəyənlərin ərizəsinə aşağıdakı sənədlər əlavə edilir:

- kadrların şəxsiuçot vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin notariat qaydası ilə təsdiqlisurətləri;
- elmi və elmi-metodikişlərin siyahısı.

**2.6.** Professor, dosent, baş müəllimvəzifəsini tutmaq üçün elan olunmuş müsabiqədə müvafiq ixtisas üzrəelmlər doktorları və fəlsəfə doktorları iştirak edə bilərlər. Müstəsna hallarda (xarici dil, incəsənət, musiqi ixtisasları üzrə, bədən tərbiyəsi və idman ixtisası fənləri üzrə, hərbi və mülki müdafiə fənləri üzrə) professor, dosent, baş müəllim vəzifəsini tutmaq üçün müsabiqədə həmin ixtisaslar üzrə elmi dərəcəsi olmayanlar da iştirak edə bilərlər.

**2.7.** Müsabiqədə iştirak haqqında ərizə qəbulundan imtina etmək yalnız namizədin müsabiqə üçün təqdim olunan sənədlərinin elanın şərtlərinə uyğun gəlmədiyi və ya ərizənin verilmə müddəti gözlənilmədiyi hallarda ola bilər.

**2.8.**Professor, dosent, baş müəllim, müəllimin əməkfunksiyaları təhsil sahəsi işçilərinin qulluqçu vəzifələrinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Təhsil sahəsi işçilərinin qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçasınıntəsdiq edilməsi haqqında" *29 mart 1997-ci il tarixli*Qərarı ilətənzimlənir.

**Professor**

Professor vəzifəsini tutmaq üçün müsabiqədə professorlar iştirak edə bilərlər.

**Əmək funksiyası:**

Tədris planlarına və proqramlarına uyğun olaraq ixtisaslar üzrə mühazirələr aparır, praktik, laborator və seminar məşğələlərinə rəhbərlik edir; dosent, baş müəllim, müəllimheyətinin fəaliyyətinə istiqamət verir. İstehsalat təcrübəsinə rəhbərlik edir; tələbələrin kurs və diplom layihələrinə, müstəqil işlərinə rəhbərlik edir; dövlət və sessiya imtahanlarını qəbul edir; fərdi plana uyğun olaraq elmi-tədqiqat işini yerinə yetirir, digər müəllimlərin elmi işlərinə, dissertasiyalara rəy verir; doktorant və dissertantlara, tələbə elmi-tədqiqat işlərinə rəhbərlik edir, dərslik, dərs vəsaitləri, metodik tövsiyələr yazır, proqramlar tərtib edir. Tədqiq etdiyi problemlərlə bağlı respublika və xarici ölkələrdə keçirilən simpoziumlarda, konfranslarda, müşavirələrdə və digər elmi tədbirlərdə məruzə və məlumatlarla çıxışlar edir.

**Bilməlidir:**

Təhsil-tərbiyə, o cümlədən ali təhsil və elmlə bağlı qanun, qərar, əmrləri,ali təhsillə bağlı normativ sənədləri; metodik tövsiyələri, tədris planlarının məzmununu, müəllimlərin, laborant-texniki heyətin vəzifələrini, dərslik, dərs vəsaiti yazmağı, proqram tərtib etməyi, elmi tədbirlər (simpoziumlar, konfrans, müşavirə və s.) təşkil etməyi və ona rəhbərlik etməyi, elm adamları ilə əlaqə yaratmağı, doktorantlara elmi rəhbərlik etməyi.

**Dosent**

Dosent vəzifəsini tutmaq üçün müsabiqədədosentlər iştirak edə bilərlər.

**Əmək funksiyası:**

İxtisası üzrə tədris planlarına uyğun olaraq mühazirə, seminar, laborator və praktik məşğələlər aparır; istehsalat təcrübəsinə rəhbərlik edir; kurs və diplom layihələrinə, tələbələrin müstəqil işlərinə rəhbərlik edir; tələbələrdən dövlət və sessiya imtahanlarını qəbul edir; kafedranın təsdiq olunmuş elmi-tədqiqat planlarına uyğun olaraq elmi iş aparır; elmi-tədqiqat işlərinə və dissertasiyalara rəy verir; tələbə elmi-tədqiqat işlərinə rəhbərlik edir; tələbələrin tərbiyə məsələsi ilə bağlı tədbirlər görür; dərslik, dərs vəsaitləri, metodik tövsiyələr yazır, proqramlar tərtib edir.

**Bilməlidir:**

Təhsillə bağlı qanunvericiliyi; normativ sənədləri; tədris planlarının məzmununu; tələbələrlə ünsiyyətdə olmağı; onların psixoloji xüsusiyyətlərini; elmi-tədqiqat işi aparmağı.

**Baş müəllim**

Baş müəllim vəzifəsini tutmaq üçün müsabiqədə bir qayda olaraq ən azı 3 illik elmi-pedaqoji stajı olan fəlsəfə doktorları və ya ən azı 5 illik elmi-pedaqoji stajı və ya istehsalat təcrübəsi, çap olunmuş elmi-metodik işləri olan yüksək ixtisaslı ali təhsilli mütəxəssislər (magistrantlar) iştirak edə bilərlər.

**Əmək funksiyası:**

İxtisası üzrə tədris planlarına və fərdi plana uyğun olaraq mühazirə, seminar, laborator və praktik məşğələlər aparır; istehsalat təcrübəsinə rəhbərlik edir; kurs və diplom layihələrinə, tələbələrin müstəqil işlərinə rəhbərlik edir; tələbələrdən dövlət və sessiya imtahanlarını qəbul edir; elmi-tədqiqat işi aparır; elmi-tədqiqat işlərinə və dissertasiyalara rəy verir. Tələbə elmi-tədqiqat işlərinə rəhbərlik edir; tələbələrin tərbiyəsi ilə bağlı tədbirlər görür və s.

**Bilməlidir:**

Təhsillə bağlı qanunvericiliyi və normativ sənədləri, tədris planlarını; tələbələrlə ünsiyyətdə olmağı; elmi-tədqiqat işi aparmağı.

**Müəllim**

Müəllim vəzifəsini tutmaq üçün müsabiqədə elmi-pedaqoji və ixtisası üzrə ən azı 1 il iş stajı olan fəlsəfə doktorları, eləcə də ən azı 3 il elmi-pedaqoji stajı və ya istehsalat təcrübəsi, çap olunmuş elmi-metodikişləri olan ali təhsilli mütəxəssislər (magistrantlar) iştirak edə bilərlər.

**Əmək funksiyası:**

Təhsilin bütün formaları üzrə seminar, laborator və praktik məşğələlər aparır. Kafedranın tədqiq etdiyi problem üzrə elmi-tədqiqat işi aparır. Tələbələrin müstəqil işlərinə istiqamət verir.

**Bilməlidir:**

Təhsillə bağlı qanunvericiliyi, normativ sənədlərivə metodik tövsiyələri; tədris etdiyi fənni; ixtisasını; tələbələrin psixoloji xüsusiyyətlərini; tələbələrə fərdi yanaşmağı.

**2.9.** Professor, dosent, baş müəllim, müəllim vəzifələrini tutmaq üçün müsabiqədə iştirak edənlərin "Açıq dərslər"i Fakültə Metodşuraları tərəfindən video-çəkilişlər

keçirilərək təşkil olunur. Fakültə Metodşurası açıq dərsləri üç səviyyədə (orta, yaxşı, yüksək) qiymətləndirərək qərar verir.

**2.10.** Sənəd Qəbulu Komissiyası müvafiq fakültədekanlığı ilə birgə professor, dosent, baş müəllim, müəllim vəzifələrini tutmaq üçünmüsabiqədə iştirak edən şəxslərlə bağlı müvafiq kafedranın rəyini öyrənmək məqsədilə onun iclasını təşkil edir. İclasa Sənəd Qəbulu Komissiyasının sədri və ya müvafiq fakültənin dekanı sədrlik edir. Kafedra üzvlərinin (ştatda olan müəllimlər, o cümlədən 0,5 ştatda çalışanlar və elmi işçilər) 2/3 hissəsi iştirak etdiyi halda iclas keçərli sayılır.

**2.11.** Kafedranın iclasında(gizli səsvermədən əvvəl) müsabiqədə iştirak edənhər bir namizədin peşə-ixtisas hazırlığı haqqında məlumatdinlənilir, onların təqdim etdiyi sənədlər araşdırılır vəgizli səs çoxluğu ilə (50+1%) qərarqəbul edilir. Müsabiqədə iştirak edənlər kafedranın iclasında iştirak edə bilər.

**2.12.** Kafedrada səsvermənin nəticəsini hesablamaq üçün səsvermədən əvvəl 3-5 nəfərdənibarət HesablamaKomissiyası seçilir. Müsabiqədə iştirak edənlərin adı və soyadı eyni səsvermə bülleteninə daxil edilir. Namizədlərin lehinə və əleyhinə münasibət bülletendə müvafiq adın saxlanılması, yaxud pozulması ilə bildirilir. Hər bir iclas iştirakçısıyalnız bir namizədə səs verə bilər. Bülletendə iki və daha çox namizədin ad və soyadı pozulmamış qaldıqda bülleten etibarsız sayılır.

**2.13.** Hesablama Komissiyası müsabiqədə iştirak edənlərin hər biri üçün səsvermənin nəticəsini ayrılıqda elan edir və onun protokolu kafedra tərəfindən mövcud qayda üzrə təsdiq olunub, müsabiqə sənədlərinə əlavə edilir. Kafedranın qərarı sədr tərəfindən imzalanır və Fakültə Elmi Şurasına təqdim olunur.

**2.14.**Fakültə Elmi Şurasınıniclasında(gizli səsvermədən əvvəl) müsabiqədə iştirak edənhər bir namizədin peşə-ixtisas hazırlığı haqqında məlumatdinlənilir, onların təqdim etdiyi sənədlər araşdırılır vəgizli səs çoxluğu ilə (50+1%) qərarqəbul edilir. Müsabiqədə iştirak edənlərFakültəElmi Şurasınıniclasındaiştirak edə bilər.

**2.15.**FakültəElmi Şurasında səsvermənin nəticəsini hesablamaq üçün səsvermədən əvvəl 3-5 nəfərdənibarət HesablamaKomissiyası seçilir. Müsabiqədə iştirak edənlərin adı və soyadı eyni səsvermə bülleteninə daxil edilir. Namizədlərin lehinə və əleyhinə münasibət bülletendə müvafiq adın saxlanılması yaxud pozulması ilə bildirilir. Hər bir iclas iştirakçısıyalnız bir namizədə səs verə bilər. Bülletendə iki və daha çox namizədin ad və soyadı pozulmamış qaldıqda bülleten etibarsız sayılır.

**2.16.** Hesablama Komissiyasımüsabiqədə iştirak edənlərin hər biri üçün səsvermənin nəticəsini ayrılıqda elan edir və onun protokolu FakültəElmi Şurasıtərəfindən mövcud qayda üzrə təsdiq olunub, müsabiqə sənədlərinə əlavə edilir. FakültəElmi Şurasının qərarı sədr tərəfindən imzalanırvə müsabiqədə qalib gələnlərin müvafiq vəzifələrə təyinolunması barədə rektora təqdimat hazırlanır.

**2.17.** Fakültə Elmi Şurasının və kafedranınrəyi əsasında Azərbaycan Dövlət Pedaqoji Universitetininrektoru hər hansı bir müsabiqədə iştirak edənləri bağlı müsbət qərar qəbul etdiyi halda müsabiqədə qalib gələnlərə növbəti tədris ilindən başlayaraq5 (beş) tədris ili müddətində əmək fəaliyyəti ilə məşğul olmaq üçün Sertifikatla təltif edir, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əlavə edilmiş "Əmək Məcəlləsinin (kontraktın) nümunəvi formasına uyğun 5 (beş)tədris ilimüddətinə əmək müqaviləsi

bağlayır vəmüvafiq əmr verir. Vəzifəyə təyin olunmuş şəxslər gördüyü işlər barədə müntəzəm olaraq kafedrada hesabat verirlər.

**2.18.** Professor, dosent, baş müəllim, müəllim müsabiqəsində iştirak etmək üçün ən azı iki namizəd sənəd vermədikdə yaxud ən azı iki namizəd müsabiqədə iştirak etmədikdə və ya bu vəzifələrə təyinolunma baş tutmadıqda vakant olan həmin vəzifələrin tutulması üçün yenidən müsabiqə elan olunur. Həmin müsabiqədə əvvəlki namizədlər də bu qaydaların tələbləri gözlənilməklə yenidən iştirak edə bilərlər.

**2.19.** Müsabiqədə iştirak etmək üçün ərizə verilməzsə və ya səsvermə nəticəsində heç bir namizəd seçilməzsə, müsabiqə baş tutmamış hesab olunur. Bu yerlərə yenidən müsabiqə elan olunduğu təqdirdə, əvvəlki namizədlər də həmin müsabiqədə iştirak edə bilərlər.

**2.20.** Seçkilər müsabiqə elan olunan gündən ən azı 3 (üç) ay müddətində başa çatdırılmalıdır.

**2.21.** Müsabiqə ilə əlaqədar şikayəti olanlar elan dərc olunan gündən başlayaraq seçkilərdən ən azı 15 gün keçənədək universitetin rektoruna müraciət edə bilər. Müsabiqə keçirilərkən qeyri-obyektivlik halları aşkar olduğu halda məsələ baxılmaq üçün universitetin Elmi Şurasının gündəliyinə salına bilər.

**2.22.** Bu Əsasnamənin hər hansı bəndi pozularsa, universitetin rektoru müsabiqəni və seçkilərin nəticələrini ləğv edə bilər.

**2.23.** Müəllim vəzifəsinə eyni zamanda doktoranturanı (əyani) müvəffəqiyyətlə bitirmiş, eləcə də cari ildə ADPU-nu fərqlənmə diplomu ilə başa vurmuş və elmi-tədqiqat işinə meyili olanmagistrantlar damüstasna hallarda rektorun əmri ilə 3 (üç)tədrisilindən çox olmayan müddətə təyin edilə bilərlər. Həmin müddət bitdikdən sonra göstərilən vəzifələr bu Əsasnaməyə uyğun olaraq müsabiqə yolu ilə tutulur.

**2.24.** Müvafiq elmi adı, elmi dərəcəsi və iş stajı olan şəxslər universitetdə saathesabı və ya əvəzçiliklə elmi-pedaqoji işə müddətli əmək müqaviləsi əsasında rektorun əmri ilə götürülür.

**2.25.** Professor, dosent, baş müəllim və müəllimlərmüstəsna hallarda rektorun əmri ilə müsabiqədənkənar müvafiq vəzifələrə təyin oluna bilərlər.

## 3. Əmək müqaviləsinə xitam verilməsi

**3.1.** Əxlaqi qüsurlara, əmək intizamını pozduğuna, vəzifəsinin öhdəsindən layiqincə gəlmədiyinə və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş başqa hallara görə tutduğu vəzifədə işləməyə layiq görülməyən professor-müəllim heyəti ilə bağlanmış əmək müqavilələrinə rektorun əmri ilə qanunvericilikdə nəzərdə tutulan qaydada xitam verilə bilər.Bu zaman müvafiq fakültələrintəqdimatı və onların seçildiyi Elmi Şuranın qərarı əsas götürülür.